# SALYAN: SƏMƏRƏLİ İQTİSADİ AXTARIŞLAR HƏRTƏRƏFLİ İNKİŞAFA STİMUL YARADIR

**Salyan rayonu respublikamızın sürətlə inkişaf edən bölgələrindən biridir. Son vaxtlar istər rayon mərkəzində, istər ayrı-ayrı kəndlərdə geniş abadlıq-quruculuq işləri aparılır. Yerli imkanlardan istifadə edib iqtisadi axtarışlar nəticəsində, aqrar sahəni inkişaf etdirmək, digər səmərəli tədbirlərə həyat vəsiqəsi vermək, bu yolla iqtisadi irəliləyişə nail olmaq hazırda prioritet hesab olunur. Rayonda infrastruktur yenilənir, əhalini uzun illər narahat edən problemlər öz müsbət həllini tapır.**

Azərbaycan Respublikası Prezidentinin 26 avqust 2016-cı il tarixli Sərəncamına əsasən Çuxanlı-Piratman-Gəncəli-Parça Xələc-Seyidan avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədi ilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunda nəzərdə tutulmuş vəsaitdən 3,8 milyon manat vəsait ayrılmışdır. 30,2 kilometr kəndarası avtomobil yolunun 21 kilometr hissəsinin tikintisi başa çatdırılmış və hazırda işlər davam etdirilir.

Azərbaycan Respublikası Prezidentinin 7 sentyabr 2016-cı il tarixli Sərəncamı ilə isə Salyan şəhərində 1200 şagird yerlik yeni ümumtəhsil məktəb binasının tikintisi üçün Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Salyan Rayon İcra Hakimiyyətinə ilkin olaraq 3,0 milyon manat vəsait ayrılmışdır. Məktəb tikintisi üçün müvafiq torpaq sahəsi ayrılmış, layihə-smeta sənədlərinin hazırlanmasına başlanılmışdır.

Rayonda abadlıq və quruculuq işləri davam etdirilir. Rayon Tarix Diyarşünaslıq muzeyində əsaslı təmir, yenidənqurma işləri, Salyan şəhərinin ad göstərici "Qoşa qala"nın tikintisi, mərkəzi kitabxanada təmir işləri başa çatdırılmışdır. X.R.Ulutürkün abidəsi təmir edilmiş, Ə.B.Hüseynzadənin abidəsinin ətrafında əsaslı abadlıq işləri görülmüş, Salyan dairəsi və 1941-1945-ci illər Böyük Vətən Müharibəsi abidəsi əsaslı təmir edilmiş, şəhər qəbiristanlığında olan qardaşlıq məzarı təmir olunmuş, şəhərdə olan uşaq poliklinikasının və Ə.Kürçaylı küçəsində yerləşən inzibati binaların fasadları təmir edilmişdir. Şəhərin əksər küçələrində abadlıq quruculuq işləri görülmüşdür. Şəhərin T.Davudzadə, N.Nərimanov və Ə.Quliyev küçələrində olan kommunal binaların dam örtüyü dəyişdirilərək yenisi ilə əvəz olunmuş və Ə.Quliyev küçəsində olan 14 ədəd kommunal binaların fasadları, giriş blokları, 2 binanın novları və su axıdan boruları təmir olunmuşdur. Şəhərin Heydər Əliyev, T.Davudzadə, T.Xəlilbəyli, M.Ə.Rəsulzadə, H.Z.Tağıyev küçələrində işıqlandırma dirəkləri quraşdırılmış, səkilərdə yaşıllıq sahələri salınmış və dekorativ ağaclar əkilmişdir.

Bayraq meydanının baxımsızlıq nəticəsində sıradan çıxması ilə əlaqədar cari təmir işləri aparılmışdır.

Hazırda Kənd Təsərrüfatı İdarəsi və baytarlıq laboratoriyası üçün tikilən yeni binalarda son tamamlama işləri aparılır. Rayon prokurorluğunun və şəhər ərazisində 7 mərtəbəli yaşayış binasının tikintisi davam etdirilir.

Rayonda qeyri-neft sektorunun, o cümlədən kənd təsərrüfatının inkişaf etdirilməsi, yeni istehsal sahələrinin yaradılması istiqamətində tədbirlər həyata keçirilir. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Sahibkarlığa Kömək Milli Fondunun kreditləri və sahibkarların vəsaiti hesabına yeni istehsal və emal sənayesi sahələrinin yaradılması istiqamətində işlər aparılır.



Rayonun Qarabağlı, Yenikənd və Xələc kəndlərində hər birinin sahəsi 1,0 hektar olan müasir tipli istixanaların, Salyan şəhərində "SÜNBÜL-2012" MMC tərəfindən un dəyirmanının tikintisinə başlanılmışdır.

Əhalinin işlə təmin olunması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəticəsində 1035 daimi iş yeri yaradılmışdır.

"Azərbaycan Respublikası Regionlarının (2014-2018-ci illər) Sosial İqtisadi İnkişafı Dövlət Proqramı"nın və "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın icrası ilə əlaqədar aqrar sahədə rayonda tədbirlər həyata keçirilir.

21249 hektar sahədə taxıl əkini aparılmışdır ki, bunun da 6508 hektarı buğda, 14741 hektarı isə arpa əkin sahələri təşkil edir. Rayon üzrə hektardan məhsuldarlıq 30,5 sentner olmaqla 21249 hektar taxıl sahəsindən 64880,6 ton taxıl istehsal olunmuşdur. 6508 hektar buğda sahəsindən 33,2 sentner olmaqla 21625,1 ton, 14740,5 hektar arpa sahəsindən hektardan məhsuldarlıq 29,3 sentner olmaqla 43255,5 ton istehsal olunmuşdur.

Rayonda mövcud meyvə bağlarının bərpası və yeni bağların salınması istiqamətində tədbirlər həyata keçirilmiş, 1125,5 tondan çox meyvə tədarük edilmişdir.

Üzümçülüyün inkişaf etdirilməsi, süfrə üzüm sortlarının istehsalının artırılması istiqamətində tədbirlər həyata keçirilir. Hazırda rayonda 1187 hektar üzüm bağları var, bundan 951,9 hektarı bar verən üzüm bağlarıdır. 1 oktyabr 2016-cı il tarixə 503,2 tondan çox üzüm tədarük edilmişdir.

2016-cı il oktyabr ayının 1-nə iribuynuzlu heyvanların sayı 62680 baş olmuşdur ki, bu da ötən ilin müvafiq dövri ilə müqayisədə 1,1 faiz çoxdur.

Rayonda pambıqçılığın inkişafı üçün bir sıra tədbirlər görülmüş, cari ildə 2167,7 hektar sahədə pambıq əkilmişdir. Əkin zamanı bir sıra çətinliklərin olmasına, bəzi ərazilərdə əkinə gec başlanılmasına baxmayaraq, bol məhsul yetişdirilmişdir. Hazırda pambıq yığımı davam etdirilir.

Rayon ərazisində torpaq sahələrinin su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması məqsədilə 225 kilometr kollektor dren şəbəkəsi, 501 kilometr suvarma kanalları lildən təmizlənmişdir.

Görülmüş işlərlə yanaşı, rayonda aqrar sahənin intensiv üsullarla inkişaf etdirilməsi, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramının icrası ilə əlaqədar bir sıra problemlər mövcuddur. Belə ki, əkin sahələrinin vegetasiya suvarma suyu ilə vaxtında və səmərəli təmin edilməsi üçün mövcud nasos stansiyalarının rekonstruksiya edilməsinə, bəzi ərazilərdə suvarma kanallarının və hidrotexniki qurğuların bərpasına və mövcud kollektor-drenaj şəbəkələrinin yenidən qurulmasına ehtiyac vardır. Bundan əlavə, əhalinin ərzaq məhsullarına, o cümlədən ərzaq buğdasına olan tələbatının daxili istehsal hesabına ödənilməsi üçün toxumçuluğun inkişaf etdirilməsinə, kənd təsərrüfatı məhsulları istehsalçılarının damazlıq mal-qara ilə təmin edilməsi üçün süni mayalanma və damazlıq işlərinin genişləndirilməsinə diqqət artırılmalıdır.

Əhalinin həyatında mühüm əhəmiyyətə malik olan elektrik, təbii qaz, içməli su təminatı sahəsində müəyyən işlər görülmüşdür.

"Azərişıq" ASC yarandıqdan sonra bu sahəyə diqqət xeyli dərəcədə artırılmışdır. Hazırda rayonda yeni tipli transformatorlar qoyulur, elektrik təsərrüfatında təmir işləri sürətləndirilir.

Rayon icra hakimiyyəti başçısının ərazilərdə keçirdiyi səyyar görüş-qəbullarda vətəndaşların etdiyi müraciətlərin əksəriyyətinin yararsız elektrik dirək və naqillərinin dəyişdirilməsi, elektrik təsərrüfatının yenidən qurulması təşkil edir. Bütün yaşayış məntəqələrində elektrik təsərrüfatının yenilənməsinə, Smartkart sayğaclarının quraşdırılmasına, naqillərin SİP kabellərlə əvəz edilməsinə ehtiyac vardır.

Əhalinin təbii qazla təmin edilməsi istiqamətində müəyyən işlər görülmüşdür.

Əhalini fasiləsiz, itkisiz, keyfiyyətli və normal təbii qazla təmin etmək məqsədi ilə yeni çəkilmiş qaz xətləri üzərinə 6 ədəd müasir tipli qaz tənzimləyici və 7 ədəd müxtəlif diametrli siyirtmələr, 2405 ədəd yeni qaz sayğacı quraşdırılmışdır. 757 ədəd qaz sayğacı yeniləri ilə əvəz edilmişdir. 725 ədəd qaz sayğacının yeni çəkilmiş qaz kəmərlərinin üzərinə köçürülməsi təmin olunmuşdur.

Görüşmüş işlərlə yanaşı, bu sahədə problemlər qalmaqdadır.

Salyan şəhərinin su təminatı mənbəyi Kür çayı olmaqla, 1956-cı və 1972-ci illərdə tikilmiş 1 və 2 saylı su təmizləyici qurğular vasitəsi ilə təmin edilirdi. Uzunmüddətli istismar nəticəsində təmizləyici qurğuların yararsız vəziyyətinə düşməsi əhalinin artan tələbatını ödəmirdi.

2016-cı ilin aprel ayının 13-dən başlayaraq Kür Su təmizləyici Qurğular Kompleksindən Biləsuvar rayonuna çəkilən su kəmərindən Salyan şəhərinin mövcud su şəbəkəsinə qoşulmaqla 1400 metr 710 milllmetrlik yüksək təzyiqli, 1900 metr müxtəlif diametrli orta təzyiqli su xətləri çəkilmişdir.



Salyan şəhərinin 38 min nəfər əhalisindən, 25 min nəfəri (4,6 min abonent) içməli su ilə təmin edilmişdir.

Görülən işlərlə yanaşı, şəhərin su və kanalizasiya sisteminin yenidən qurulmasına ciddi ehtiyac vardır.

Sentyabr ayının son günlərində rayona yağan intensiv yağışlar nəticəsində Salyan şəhərinin 100-dən artıq fərdi yaşayış evinin həyətlərində, kommunal binaların zirzəmilərində, küçələrdə çoxlu miqdarda su yığılmışdır.

Şəhər sakinlərinin bilavasitə yaşayış şəraitinə təsir edən bu kimi amillərin aradan qaldırılması üçün rayon icra hakimiyyətində dərhal müvəqqəti qərargah yaradılmış, su yığılan həyətlər müəyyən edilmiş və onların aradan qaldırılması üçün tədbirlər görülməsinə başlanılmışdır.

Hazırda rayon ərazisində 233 məcburi köçkün ailəsində 853 nəfər və 69 qaçqın ailəsində 281 nəfər məskunlaşmışdır. Rayonda məskunlaşmış qaçqın və məcburi köçkünlərin sosial problemləri daim rayon icra hakimiyyətinin diqqətində saxlanılmış, ortaya çıxan problemlərin həlli üçün ardıcıl olaraq tədbirlər görülmüşdür. Belə ki, məcburi köçkünlərin əksəriyyəti işlə təmin olunmuşdur. Onlar əsasən rayonun idarə, müəssisə və təşkilatlarında, fərdi kommersiya sahələrində işləyir və bəziləri isə kənd təsərrüfatında mövsümi işlərdə çalışır.

Rayonda 43 məscid, 3 pir və 2 ziyarətgah fəaliyyət göstərir. Rayon icra hakimiyyəti başçısının yanında fəaliyyət göstərən Dini komissiyada qeydiyyatdan keçmək istəyən dini icmaların müraciətlərinə baxılaraq Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə göndərilir. Hazırda rayon üzrə 19 dini icma Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində qeydiyyatdan keçmişdir.

Rayonda təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin, idman qurğularının yenilənməsinə, bu müəssisələrdə keyfiyyyət göstəricilərinin yüksəlməsinə ciddi fikir verilir, bu sahələrə qayğı ilə yanaşı, tələbkarlıq göstərilir.

Respublikamızın qədim mədəniyyət mərkəzlərindən olan Salyan ölkədə aparılan dinamik inkişafın ön sıralarındadır.

**Hazırladı:**
**Tofiq HÜSEYN,**
**"Respublika".**





